Xalq qəzeti .- 2021.- 29 aprel.- S.4.

# Ədalət baş-ayaq olanda cani şirnikləndirilir, cinayət təşviq edilir, ziyan çəkən narazı qalır



***ABŞ prezidenti Co Bayden saxta və uydurma "erməni soyqırımı" ifadəsini səsləndirməklə tarixi yanlışlığa və xətaya yol vermiş oldu. Dünyanın ən böyük dövlətinin ali rəhbərinin göz görə-görə tarixi təhrifə yol verməsi, olmayan bir hadisəni olmuş kimi, təqdim etməyə çalışması qəbuledilməz və yolverilməzdir. Bu, təhlükəli tendensiyadır. Bu, həm də acı təəssüf və etiraz doğuran bir davranışdır.***

***Baydenin bu addımı, istər qardaş Türkiyə ilə, istərsə də, Azərbaycanla münasibətlərə vurulan ciddi zərbə oldu.***



Bu vaxtadək Türkiyə də, Azərbaycan da ABŞ-ın dünyada və xüsusilə, bölgədə ən yaxın tərəfdaşı və müttəfiqlərindəndir. Ələlxüsus, ABŞ–Türkiyə münasibətləri ciddi bir keçmişə söykənir.

Türkiyə həmişə ABŞ-la hərbi-strateji müttəfiqliyə və tərəfdaşlığa sadiq qalıb. İndi bütün bunların fonunda ABŞ prezidentinin belə bir tarixi yanlışlığa və xətaya yol verməsi, təbii ki, iki ölkə arasında münasibətləri ciddi şəkildə zədələyir.

Xatırladaq ki, 1981-ci ildən sonra heç bir ABŞ prezidenti bugünədək "erməni soyqırımı" ifadəsini işlətməmişdi.

Görünür, Bayden bu addımı erməni seçicilərin və bu ölkədəki güclü erməni lobbisinin təzyiqi altında atıb. Lakin o, nəzərə almalı idi ki, ABŞ üçün regionda ermənilərdən müqayisəedilməz qədər önəmli olan Türkiyə və Azərbaycan bu günə kimi saxta "erməni soyqırımı" iddiasını qəbul etməyib, bu yalan isə hər iki ölkəyə qarşı tarixi düşmənçilikdən və ərazi qoparmaq niyyətindən qaynaqlanır. Qonşuları ilə yola getməyən, təcavüzkar siyasət yeridən faşist ölkəsinin yalanına uymaq ABŞ kimi dünya nizamında aparıcı rol oynayan bir dövlətin və onun başçısının siyasi davranışına yaraşan hal deyil.

Bir də ki, düşünüb-daşınmadan soyqırımından danışanlar dönüb keçmişə ayıq nəzərlə baxsalar, daha yaxşı və məqsədəuyğun olar. Onda görərlər ki, soyqırımı nə deməkdir, onu edənlər kimdir, kütləvi insan qırğınına, işğala, davamlı deportasiyaya məruz qalanlar kimdir. Əgər ABŞ başda olmaqla, digər dövlətlər, "erməni soyqırımı" iddialarına züy tutanlar, dəstək verənlər həqiqət axtarışındadırlarsa, o zaman ötən əsrin əvvəllərindən bu yana ermənilərin Anadolu və Azərbaycan türklərinə, qarşı zaman-zaman törətdikləri qətliamlara, insanlıq faciələrinə, soyqırımı cinayətlərinə nəzər salsınlar, bu qanlı hadisələrə ədalətli siyasi-hüquqi, ən əsası insani qiymət versinlər.

Qoy unutmasınlar ki, ədalət baş-ayaq olanda cani şirnikləndirilir, cinayət təşviq edilir, ziyan çəkən tərəf isə narazı qalır.

Heç uzağa getmək lazım deyil, düz 29 il öncə özlərini lallığa, karlığa və korluğa vurmuş dünyanın güc mərkəzlərinin gözü qabağında Xocalı, Cəmilli, Qaradağlı, Umudlu, Meşəli, Ağdaban, Malıbəyli, Ballıqaya, Başlıbel kimi soyqırımları və qətliamları törədildi. Üstündən qeyd etdiyimiz kimi, 29 il keçir, ancaq hələ də bu qanlı cinayətlərə ədalətli qiymət verilməyib, günahkarlar cəzalandırılmayıb. ABŞ-da daxil olmaqla, Qərb ölkələri ədalət, gerçək həqiqət tərəfdarıdırlarsa, buyursunlar, ermənilərin Azərbaycanda törətdikləri faciələrə, erməni vəhşiliklərinə qiymət versinlər.

Görünür, bu, onlara sərf etmir. Bəs onda saxta erməni iddialarına "hə" deməklə öz nüfuzlarını niyə zərbə altında qoyurlar? Çünki onlara həqiqət, ədalət lazım deyil. Onlara ermənilər kimi, onun-bunun əlində siyasi oyuncaq, başqalarına təzyiq aləti olanlar lazımdır ki, öz məkrli məqsədlərini həyata keçirə bilsinlər. Amma onlar ədaləti, həqiqəti tanımaq istəməsələr də, tarixi təhrif etməyə cəhdlər göstərsələr də, heç nə alınmayacaq, istədiklərinə nail ola, saxta iddiaları bizə qəbul etdirə bilməyəcəklər.

Belə siyasi oyunlar nə qardaş Türkiyəni, nə də Azərbaycanı öz yolundan, ciddi hədəflərindən döndərə bilməyəcək. Bu yöndə bütün cəhdlər fiaskoya uğrayacaq, necə ki, bu günə kimi, uğrayıb. Heç təsadüfi deyil ki, Baydenin məlum bəyanatından heç dəqiqələr keçməmiş Azərbaycandan qardaş və dost Türkiyəyə növbəti dəstək ifadə olundu – bu, əsl dost və qardaş dəstəyi, həmrəyliyidir.

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı oldu. Dövlət başçıları ABŞ Prezidenti Baydenin qondarma "erməni soyqırımı" ilə əlaqədar verdiyi həqiqəti təhrif edən bəyanatı qınadılar. Bu qərarın yanlış olduğunu qeyd edən Prezident İlham Əliyev onu tarixi səhv adlandırdı. Dövlətimizin başçısı Azərbaycanın bu bəyanatı qəbuledilməz hesab etdiyini vurğuladı.

Söhbət zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu bildirdi. Eyni zamanda, dövlətimizin başçısı Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu bir daha qeyd etdi. Prezident Rəcəb Tayyib Ərdoğan isə dəstəyə və ifadə etdiyi mövqeyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O da Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırdı. Sonda, dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafından məmnunluqlarını ifadə etdilər.

Bəli, iki qardaş və dost ölkə bu günə kimi, bütün məsələlərdə birgə olub, birlikdə addımlayıb və bütün çətinlikləri, maneələri də birgə səylə dəf ediblər. Bu günə kimi, belə olub, bu gün də belədir, gələcəkdə də belə olacaq.

***Eldar İBRAHİMOV,***
***Milli Məclisin komissiya sədri,***
***professor***